# Qərbi Kaspi Universiteti

## Gənc Tədqiqatçıların Respublika Elmi Konfransı

14 may 2025-ci il tarixində Qərbi Kaspi Universitetində ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş gənc tədqiqatçıların "Qlobal çağırışlar və perspektivlər" mövzusunda respublika elmi-praktik konfransı keçiriləcəkdir. Bu konfrans, müxtəlif sahələr üzrə faəliyyət göstərən gənc alimlər üçün elmi nəticələrini ictimaiyyətə təqdim etmək, elmi diskussiyalara qoşulmaq və tədqiqat bacarıqlarının elmi cəmiyyətə inteqrasiyası baxımından mühüm bir addımdır.

### Elmi istiqamətlər

- İKT və mühəndislik
- Humanitar elmlər
- İqtisadiyyat
- Sosial elmlər
- Təbiət elmləri
- Sənətşünaslıq

### Müəlliflər üçün təlimatlar

**Konfransın işçi dilləri:** Azərbaycan, rus, ingilis

### Tezisin tərtibi qaydaları

- Həcm 3 səhifəyə qədər, format A4, şrift Times New Roman, ölçü 12, hər tərəfdən 2,0 sm, 1,5 interval, abzas 1,25 olmalıdır.
- Açar sözlər ədəbiyyat siyahısından əvvəl göstərilməlidir.
- Əgər material rus və ya ingilis dilində təqdim edilirsə tezisin sonunda Azərbaycan dilində xülasə əlavə olunmalıdır.

### Tezisin strukturu

- Tezisin adı böyük hərflərlə, qalın şriftlə (ölçü 14)
- Müəllifin soyadı, adı, atasının adı qalın şriftlə (ölçü 12)
- Təşkilat və şəhərin adı adi şriftlə (ölçü 11)
- Tezisin mətnində qaynaqlara istinad, kvadrat mötərizədə nömrə ilə (istinadın ədəbiyyat siyahısındakı nömrəsinə müvafiq olaraq) verilir (məs.: [1], [2]).
- İstifadə olunan ədəbiyyatın siyahısı tezisin sonunda, əlifba sırası ilə və nömrələnməklə verilir (ölçü 12).
- 

### Mühüm tarixlər

- Tezislərin göndərilməsi üçün son tarix: 30 aprel 2025-ci il
- Tezisin qəbul olunması haqqında son məlumatlandırma tarixi: 05 may 2025-ci il

### Keçirilmə yeri və əlaqə

Qərbi Kaspi Universiteti, Əhməd Rəcəbli korpusu. (502 saylı konfrans zalı)

- E-poçt: yrc2025@wcu.edu.az

**TƏŞKİLAT KOMİTƏSİ**